QANUN № 07 (381), 2026, s. 21-30

**Abberin Nüşabə Ramiz qızı,**
Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirlinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun hüquqşünası, Bakı Dövlət Universitetinin doktorantı
Ünvan: Bakı şəh., Nərimanov r., Qarabağ k., 68, AZ1069
E-mail: nushaabberin@gmail.com

**UOT 341.24**
**DOI: https://doi.org/10.30546/2218-9130.007.2026.9096**

# BEYNƏLXALQ HÜQUQUN ÜMUMTANINMIŞ PRİNSİPLƏRİ XÜSUSİ ŞƏXSLƏRİN MÜLKİYYƏT HÜQUQUNUN MƏHDUDLAŞDIRILMASININ (BEYNƏLXALQ SANKSİYALARIN TƏTBİQİNİN) ÜMUMİ ƏSASI KİMİ

***Açar sözlər:*** *beynəlxalq sanksiyalar, xüsusi şəxslərin mülkiyyət hüququ, mülkiyyət hüququnun məhdudlaşdırılması, BMT Təhlükəsizlik Şurası, beynəlxalq hüququn ümumtanınmış prinsipləri.*

***Ключевые слова***: *международные санкции, право собственности частных лиц, ограничение права собственности, Совет Безопасности ООН, общепризнанные принципы международного права.*

***Keywords***: *international sanctions, private property rights, restriction of property rights, United Nations Security Council, generally recognized principles of international law.*

Mülkiyyət hüququnun məhdudlaşdırılmasının forması kimi sanksiyaların tətbiq olunduğu şəxslərin dairəsi genişdir. Bu dairəyə dövlət və onun ayrı-ayrı qurumları, habelə dövlət və onun ayrı-ayrı qurumları ilə müxtəlif fəaliyyət sahələri üzrə müəyyən əlaqədə olan xüsusi şəxslər daxil ola bilir. Beynəlxalq sanksiyaların tətbiqinin nəticələri və ya bu barədə qəbul edilən qərarlar yalnız ümumi beynəlxalq hüquq sahəsinə deyil, həm də beynəlxalq xüsusi hüquq münasibətlərinə, onların subyektlərinə təsir edir [13, s. 177]. Bu, beynəlxalq münasibətlərin sistemli tənzimetmə əlaqəsindən meydana gəlir [8, s. 7]. Xüsusi şəxslərin mülkiyyət hüququnun məhdudlaşdırılması mahiyyət etibarı ilə beynəlxalq hüquqa qarşı cinayətlərin qarşısının alınmasına yönəlməklə beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsinə xidmət edir. Bu halda əsas məqsəd cəzalandırma deyil, mütənasibliyin, yəni beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində pozuntunun dayandırılması (çəkindirmə qaydasını təmin etmək) çıxış edir. Beynəlxalq Hüquq Komissiyası özünün Sanksiyaların hüquqauyğun tətbiqi layihəsində qeyd etdiyi kimi məhdudlaşdırma ilə bağlı "sanksiyalardakı tələb onların müvəqqəti olması və geri götürülməsidir" [26, s. 135-136].

**Əsas müddəalar**

Beynəlxalq sanksiyalar – beynəlxalq öhdəliyini pozan və beynəlxalq hüquqa zidd əməl

törədən dövlətə qarşı tətbiq edilən hüquqi məcburi neqativ nəticə [6, s. 109] olmaqla, həm də həmin dövlətlə əlaqəli olan şəxslərin davranışına qarşı da yönəlir. Beynəlxalq hüquqa görə sanksiya altına düşən şəxslərin əmlakının müsadirəsi son tədbir olmalıdır [29, s. 337]. Əks halda beynəlxalq hüquqi məsuliyyətin təmin edilməsində nəzərdə tutulan əsas məqsəd pozulmuş olur.

Beynəlxalq hüquq pozuntularına qarşı sanksiyaların rejimi beynəlxalq hüququn ümumtanınmış normaları əsasında müəyyən edilir. Beynəlxalq sanksiyaların ümumi əsası BMT Nizamnaməsinə dayanır. BMT Nizamnaməsində dinc məcburiyyət tədbiri olaraq "sanksiya" terminindən istifadə edilməsə də, Nizamnamənin VII fəslində "hərbi qüvvələrdən istifadə ilə əlaqəli olmayan tədbirlər" (m. 41), həmçinin "preventiv və ya məcburi tədbirlər" (m. 50), "beynəlxalq sülhün, təhlükəsizliyin pozulması və ya təcavüz halında tədbirlər" yer alıb. Bu tədbirlər beynəlxalq sülhün, təhlükəsizliyin təmini üçün nəzərdə tutulmaqla bütün subyektləri, o cümlədən xüsusi şəxsləri də öhdəlikli edir. Beynəlxalq sülhün, təhlükəsizliyin təmini beynəlxalq hüququn ümumi qaydasını təşkil edir. BMT Nizamnaməsində (m.1) ifadə edilən məqsədlər naminə bütün dövlətlər BMT Nizamnaməsinin 2-ci maddəsində nəzərdə tutulan prinsiplərə (beynəlxalq hüququn ümumi qaydasına) riayət etmək üzrə öhdəliyi onların yurisdiksiyasında olan bütün şəxslərə, o cümlədən xüsusi şəxslərlə olan münasibətlərə də şamil edilir. BMT Nizamnaməsində, Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsində, Dövlətlərin iqtisadi hüquq və vəzifələri (1974) Xartiyasında və bir sıra digər beynəlxalq hüquq aktlarında: suveren bərabərlik, güc tətbiq etməmək və güclə hədələməmək, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin haqqı, beynəlxalq mübahisələrin dinc həlli, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi və s. prinsiplər üzrə həm hüquqa, həm də öhdəliyə malikdirlər. Dövlətlərin əsas hüquq və vəzifələrində beynəlxalq hüququn ümumtanınmış normaları ehtiva edilir. Bu mənada beynəlxalq ümumi hüququn əsas və ya ümumi prinsipləri beynəlxalq xüsusi münasibətlər üçün də imperativ göstərişlər qismində çıxış edirlər.

Ayrı-ayrı dövlətlərin yurisdiksiyasında olan fiziki və hüquqi şəxslər arasında yaranan beynəlxalq xüsusi münasibətlərinin beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına zidd qaydada tənzimlənməsi yol verilməzdir. Beynəlxalq hüququn ümumtanınmış və ya imperativ prinsipləri "uzun müddətli tətbiq nəticəsində" hüquqi qüvvəsi "hamılıqla qəbul edilən" normalardır. Bu prinsiplər həm beynəlxalq hüququn, həm də dövlətdaxili hüququn əsaslarını müəyyən edir. Buna görə də "dövlətlər bu prinsiplərin hüquq və qanunvericilik üçün xüsusi tətbiqetmə qaydasını təmin etməlidirlər [12, s. 42]. Dövlətlərin maraqlarının uzlaşdırılma vasitəsi kimi "ümumtanınmış prinsiplərin beynəlxalq xüsusi hüququn normativ sisteminin əsasını təşkil etməsi" [9, s. 86] və xüsusi şəxslər üçün də əhəmiyyətli olması qeyd edilməlidir. Bu prinsiplər beynəlxalq münasibətlərdə subyekt və predmetə istiqamətlənmək baxımından universal fəaliyyət sferasına aiddirlər [14, s. 7-8]. Onlar həm hüquqyaratma, həm də hüququn realizəsi prosesinin tənzimetmə əsasını təşkil edir. Beynəlxalq münasibətlərin beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə əsaslanması dövlətlərin qanunvericiliyi üçün ümumi formalı haldır. Buna nümunə olaraq Almaniya Federativ Respublikasının Əsas Qanununun (1949) 25-ci maddəsi (beynəlxalq hüququn ümumi normaları Federasiyanın hüququnun tərkib hissəsi sayılır. Onlar qanunlar qarşısında üstünlüyə malikdirlər və federal ərazilərin əhalisi üçün birbaşa hüquq və vəzifələr yaradırlar) [25], İtaliya Respublikasının Konstitusiyasının (1947) 10-cu maddəsi (İtaliyanın hüquq qaydası beynəlxalq hüququn

ümumtanınmış normaları ilə razılaşdırılır) [27] və s. qeyd edilə bilər. Bu hal Azərbaycan Respublikası Konstitusiyası üçün də xarakterikdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu – "Beynəlxalq münasibətlərin prinsipləri" adlı maddəsində deyilir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur [5]. Burada təsbit edilən hamılıqla qəbul edilmiş və ya ümumtanınmış prinsiplər olaraq beynəlxalq hüquq qaydasının təməl prinsipləri nəzərdə tutulur və bunlar əsasən BMT Nizamnaməsinin 2-ci maddəsində ifadə edilən prinsiplərdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsi qeyd-şərtsiz olaraq Azərbaycan Respublikasının digər dövlətlər ilə bütün münasibətlərinə, eləcə də beynəlxalq kommersiya fəaliyyəti üzrə münasibətlərinin tənzimlənməsinə şamil edilir. Azərbaycan Respublikası Konstitusiyanın qeyd edilən maddəsinin adı və məzmuna görə: birincisi, əgər maddənin adından, "beynəlxalq münasibətlərin prinsipləri" anlayışından çıxış etsək, ...beynəlxalq münasibətlər hüquq tənzimetmə obyekti kimi, dövlət sərhədlərindən kənara çıxan bütün ictimai münasibətləri özündə əks etdirir [22, s. 27]. Ayrı-ayrı dövlətlərarası (publik) münasibətlərlə yanaşı, həm də bu münasibətlərdən törəyən, müxtəlif dövlətlərə məxsus fiziki və hüquqi şəxslərin arasında yaranan xüsusi münasibətlər də beynəlxalq münasibətlərə aiddir [7, s. 195]. Buradan yaranan nəticəyə görə, maddədə ifadə edilən "Beynəlxalq münasibətlərin prinsipləri" dövlətlərarası (publik) münasibətlərlə yanaşı beynəlxalq xüsusi münasibətlərin də tənzimlənməsi əsasını təşkil edir.

Məlumdur ki, dövlətlərarası münasibətlər müxtəlif xarakter daşıya bilər. Dövlətlərarası münasibətlər ümumi və ya inzibati (hakimiyyət) xarakterli, (məsələn, xarici dövlətdə diplomatik nümayəndəliyin açılışı, hüquqi yardım, o cümlədən məhkəmə tapşırıqları və ya sübutların istənilməsi) və dövlət müəssisələri vasitəsi ilə (məsələn, atom elektrik stansiyasının tikintisi, enerji resurslarının, silah və texnoloji avadanlığın satışı və s. ilə) əlaqəli olan kommersiya xarakterli münasibətlər qeyd edilə bilər. Digər tərəfdən, qloballaşan dünyada beynəlxalq xüsusi münasibətlərin hüquqi tənzimetmə əsası kimi daha üstün qaydada ya beynəlxalq müqavilə normaları, ya da ümumqəbul edilmiş beynəlxalq adətlər tətbiq edilir ("Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının 2000-ci il Qanunu m. 1.2; Azərbaycan Respublikasının 2000-ci il Mülki Məcəlləsi, m.3). Yeri gəlmişkən, qeyd etdiyimiz hər iki qanunvericilik aktında beynəlxalq müqavilə normalarına birbaşa istinad olsa da beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə birbaşa və ya açıq istinad edilməməsi Azərbaycan Respublikası hüququnun "ümumi qaydası"nın müasir beynəlxalq hüququn "ümumi qaydası"na uyğun olmadığı qənaəti yaradır. Hesab edirik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (m. 1.2) [2], İnzibati Xətalar Məcəlləsinin (m.1.2) [4] beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə istinad norması "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının 2000-ci il Qanunu və Azərbaycan Respublikasının 2000-ci il Mülki Məcəlləsi üçün də nəzərə alınmalıdır.

Beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə istinad normasının Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində olmaması da başa düşülən deyil. Beynəlxalq hüququn ümumtanınmış prinsipləri yalnız beynəlxalq hüququn imperativ əsaslarını müəyyən etmir (Müqavilələr hüququ üzrə 1969-cu il Vyana konvensiyası m. 53), eyni zamanda Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu "Beynəlxalq münasibətlərin prinsipləri" maddəsində ifadə edilən siyasət tərzi kimi qanunvericiliyin və bütövlükdə dövlətdaxili hüququn inkişafı üçün xüsusi əhəmiyyət kəsb

edir. Qeyd etdiyimiz aktlarda beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə birbaşa istinad normasının olmaması o mənaya gəlmir ki, hüquq tətbiq edən həmin prinsiplərə istinad edə bilməz. Azərbaycan Respublikası Konstitusiyasının bir çox maddələrinə (m.12, 24, 71 və s.) uyğun olaraq insan hüquq və azadlıqlarına hörməti özü üçün prioritet kimi görə bilən hüquq tətbiq edən müvafiq qanunvericilik aktlarının "...bu qanun Azərbaycan Respublikasının Konstitusiyasına və..." əsaslanır maddəsindən və ya dolayısı ilə "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının 2000-ci il Qanununda (m. 4 və 5) ifadə edilən qaydadan istifadə edəcəkdir. Lakin Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminə daxil olduğu dövrü nəzərə alsaq bu istiqamətdə gələcəkdə təkmilləşdirilmələr aparılması istisna deyil. Ona görə də verdiyimiz təklifin aktuallığını müdafiə etmək məcburiyyətindəyik.

Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində ifadə edilən "...Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətləri..." üzrə hüquq siyasəti fərqli yurisdiksiyalar arasında meydana gələn bütün transmilli münasibətləri, o cümlədən kommersiya xarakterli xarici elementli, "diaqonal" münasibətləri və onların subyektlərinin hüquq və vəzifələrini də əhatə edir. Bu hal dövlətlərin öz hüquq sistemlərinin göstərişinə bağlı olmasından yaranır [19, s. 66].

Dövlətlərarası münasibətlər iqtisadi maraqlar fonunda meydana gəlir. Beynəlxalq iqtisadi maraqların əsas aktorları isə kommersiya təyinatlı xüsusi şəxslərdir. Ona görə də Konstitusiyanın müvafiq müddəasında ifadə edilən münasibətlərin yalnız dövlətlərarası münasibətlərdən ibarət olmasını düşünmək doğru olmazdı. Burada Almaniya Federativ Respublikasının Əsas Qanununun (1949) qeyd etdiyimiz 25-ci maddəsini (***onlar*** *(yəni, beynəlxalq hüququn ümumi normaları)...* ***federal ərazilərin əhalisi üçün birbaşa hüquq və vəzifələr yaradırlar*** [25] (kurs. – müəll.) qeyd etmək yerinə düşər. Dövlətlərarası münasibətlərdə "beynəlxalq münasibətlərin prinsipləri"nin ayrı-ayrı xüsusi şəxslər üçün hüquq və vəzifə yaratması "beynəlxalq hüquq subyektliyi" institutu ilə birbaşa bağlıdır. "Beynəlxalq hüquq subyektliyi" institutu normativ anlamda mübahisəli görünsə də subyektlərin dairəsində xüsusi şəxslər də ifadə edilməkdədir. Beynəlxalq hüquq elminin korifeylərindən F.F.Martens "beynəlxalq münasibətlərdə hüququn subyektləri"nə xüsusi şəxsləri də aid edir. O qeyd edir ki, bütün mədəni dövlətlər qəbul edirlər ki, insan, məlum ayrılmaz hüquqların subyektidir və qarşılıqlı münasibət sahəsində ona hörmət edilməlidir. Buna görə də hər kəs təəbəliyindən və ya milli mənsubiyyətindən asılı olmayaraq hazırda beynəlxalq hüququn bütün fəaliyyət məkanında özünün şəxsiyyətinin və mülkiyyətinin qəyyumluğundadır [16, s. 324]. Beynəlxalq hüquq ədəbiyyatında "bəşəriyyətin hüquqları" konsepsiyasından çıxış edərək "beynəlxalq hüquq subyekti kimi dövlətlərlə bərabər, fərdlər də göstərilir [24, s. 231]. Bir çox müəlliflər ayrı-ayrı xüsusi şəxsləri də beynəlxalq hüququn subyekti olaraq verir. Hər hansı bir əlamətindən asılı olmayaraq fərdin universal hüquq subyektliyinə istinad edilir [21, s. 115].

Ümumi hüquq nəzəriyyəsindən çıxış edən müəlliflər beynəlxalq hüquq normalarının birbaşa fərdlər üçün hüquqi qüvvə kəsb etməsini əsaslandıraraq onların beynəlxalq hüquq subyektliyini müdafiə edirlər [18, s. 178-180].

Rus alimi N.A.Uşakov qeyd edir ki, ümumiyyətlə beynəlxalq hüquq subyektliyi hüquq subyektliyi anlayışı ilə eynilik təşkil edir [15, s. 159]. S.S.Alekseyevə görə hüququn subyekti dedikdə, hüquq münasibətinin iştirakçısı olmaq qabiliyyətinə malik şəxs başa düşülür. Beynəlxalq hüquq münasibətlərində də şəxslərin iştirakı sübuta ehtiyacı olmayan faktdır.

R.O. Xalfina "Hüquq münasibəti haqqında təlim"dən çıxış edərək qeyd edir ki, hüquq mü-

nasibəti hüququn yeganə realizə forması deyil, hüquq subyektinin vəziyyətini müəyyən edən normalar, ilk növbədə, hüquqi statusu yaratmaqla realizə edilirlər. Lakin bu o demək deyil ki, konkret münasibətlərdə bütün potensial imkanlar realizə ediləcək. Burada potensial imkanlar olaraq subyektiv hüquqlar nəzərdə tutulur [23, s. 351]. Ona görə də beynəlxalq hüquq subyektliyinin təsnifatında müxtəlif meyarlar əsas alına bilər. Beynəlxalq hüquq subyektliyində yalnız norma yaradıcılıq funksiyasından asılı olaraq təsnifat aparmaq ayrı-ayrı şəxslərin beynəlxalq mexanizmlərə (məsələn, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, m. 15.) müraciət hüququnu tanınmamaq təəssüratı yarada bilər və yaxud ayrı-ayrı xüsusi şəxslərin beynəlxalq cinayətlərin törədilməsi halında fərdi cinayət məsuliyyətinə cəlb edilməsi inkar edilə bilərdi. Təsadüfi deyil ki, M.Şou müasir beynəlxalq hüququ xarakterizə edərkən onun əlaməti kimi iştirakçıların geniş dairəsini (dövlətləri, beynəlxalq təşkilatları, ...ümumi hüququn kompaniyalarını, xüsusi şirkətləri və fərdləri) qeyd edir [28, s. 138-139].

Beləliklə, Almaniya qanunvericiliyində ifadə edildiyi kimi, beynəlxalq hüquq subyekti o şəxslər hesab edilməlidir ki, beynəlxalq hüquq normaları əsasında beynəlxalq hüquqlara malik olub beynəlxalq öhdəlik daşımış olsunlar. Belə qəbul edildiyi halda beynəlxalq hüququn ümumtanınmış prinsipləri xüsusi şəxslər üçün birbaşa beynəlxalq hüquq və beynəlxalq öhdəliklərin əsası kimi çıxış edirlər.

Almaniya qanunvericiliyindəki kimi açıq formada olmasa da beynəlxalq hüququn ümumtanınmış prinsipləri normativ əsas kimi həm birbaşa, həm də ayrı-ayrı qanunvericilik aktlarında ifadə edilməklə tənzimetməni istiqamətləndirir. Beynəlxalq hüququn ümumtanınmış prinsiplərindən, məsələn, “pacta sunt servanda” birbaşa tənzimetmə əsası kimi dövlətin xarici siyasətində onun tərəf olduğu beynəlxalq müqavilələrinin icrasının və daxili norma yaradıcılığının şərti olaraq qəbul edilir Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 27-ci (daxili hüquq və müqavilənin gözlənilməsi) maddəsində deyilir ki, iştirakçı, müqavilənin onun tərəfindən yerinə yetirilməməsinə haqq qazandırmaq üçün özünün daxili hüququnun qaydasına əsaslana bilməz [29, s. 340]. “Pacta sunt servanda” prinsipinə görə dövlətdaxili hüququn (RF Konstitusiyası, m.15.4), qanunvericiliyin (Azərbaycan Respublikasının Konstitusiyası, m.148.II) tərkib hissəsi olmuş beynəlxalq müqavilə ilə daxili qanunvericilik arasında kolliziya yarandığı halda (istisna halı nəzərə alınmaqla) üstünlük beynəlxalq müqaviləyə verilir (Azərbaycan Respublikasının Konstitusiyası, m.151). Bu hal eynilə beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə aiddir və burada həmin normaların hüquqi qüvvəsi, istisnasız olaraq onların üstün tətbiqini heç bir halla məhdudlaşdırıla bilməz.

Beynəlxalq hüquq normalarının implementasiyası üsulu üzrə hansı sistemin tətbiq edilməsi beynəlxalq hüquq tərəfindən tənzimlənmir. İmperativ normaların sanksiyalaşdırılması qaydası da dövlətlərin istəyinə bağlıdır. Lakin bu normaların (prinsiplərin) ümumtanınmış olması və birbaşa hüquqi qüvvəsi onun “***jus cogens***” xarakterindən meydana gəlir. “Pacta sunt servanda” normasının hər hansı bir aktda ifadə edilib-edilməməsi də əhəmiyyətli deyil. Bu prinsipin imperativ xarakteri onda ifadə edilib ki, dövlətlər özlərinin qarşılıqlı münasibətlərində onun göstərişindən yayına bilməzlər.... “Pacta sunt servanda” prinsipinin imperativliyi “jus cogens” normasının anlayış mahiyyətindən meydana gəlir [10, s. 66].

Beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin beynəlxalq münasibətlərdə, beynəlxalq xüsusi münasibətlərin hüquqi tənzimlənməsində tətbiqi beynəlxalq əməkdaşlıq üzrə öhdəliyin ifadəsidir [11, s. 3-4]. Hüquq sahələri

arasında qarşılıqlı tənzimetmə əlaqəsi ümumi məqsədə, beynəlxalq sülhə və təhlükəsizliyə xidmət edir. Beynəlxalq münasibətlərin hüquqi tənzimlənməsi həm beynəlxalq ümumi hüquq, həm də beynəlxalq xüsusi hüquq formasında həyata keçirilir. Beynəlxalq xüsusi hüquqi tənzimetmə forması da beynəlxalq müqavilə normaları ilə, ya da dövlətlərin kommersiya təcrübəsində ümumi praktikaya çevrilən kollizion normalar əsasında müəyyən edilir. Hətta dövlətlərin beynəlxalq "unifikasiya"ya əsaslanmadan təsis etdiyi dövlətdaxili kollizion tənzimetmə normaları da beynəlxalq əməkdaşlıq üzrə öhdəliyin istiqamətini nəzərə almaq məcburiyyətindədir. Beynəlxalq əməkdaşlıq üzrə öhdəlik ayrı-ayrı yurisdiksiyaya mənsub olan şəxslər arasında kommersiya fəaliyyətinin təşviqinə, daha əlverişli hüquqi rejimlərin yaradılmasına xidmət edir. Həqiqətən ...dövlətlərarası səviyyədə əməkdaşlığın realizəsi fiziki və hüquqi şəxslər səviyyəsində əməkdaşlığın, əlaqələrin olmasından birbaşa asılıdır, əks halda, o cansız əməkdaşlıq olacaqdır [9, s. 94]. Dövlətlərarası əməkdaşlıq müxtəlif istiqamətlərdə həyata keçirilir. Bir istiqamət də öz fiziki və hüquqi şəxsləri üçün xarici yurisdiksiyada hüquqi təminatın yaradılmasıdır. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında "Sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında" 1994-cü il 9 fevral tarixli Sazişin preambulası əməkdaşlıq prinsipinə istinadla başlayır. Qeyd edilir ki, daha sıx əməkdaşlığı bir tərəfin digər tərəfin ərazisinə qoyduğu sərmayəyə münasibətdə onu artırmaq arzusu ilə, bu sərmayələrin tənzimlənməsi ilə bağlı rejim haqqında razılaşmanın sərmayə və texnologiya axınına..., səmərəli sərmayə rejimi yaratmaq haqqında razılaşaraq bu Sazişi bağlamaq qərarına gəldilər [1]. Eyni qayda Küveyt Dövləti Hökuməti (2009), Almaniya Federativ Respublikası Hökuməti (1995) və s. arasında bağlanmış sazişlər üçün xarakterikdir. Dövlətlərarası əməkdaşlıq prinsipinə uyğun olaraq beynəlxalq ümumi hüquq qaydası beynəlxalq xüsusi hüquq münasibətlərini təşviq etdiyi kimi onun dayandırılmasında əsas ola bilir. BMT Nizamnaməsinin 1.3-cü maddəsində deyilir ki, BMT-nin məqsəd və prinsiplərinə uyğun olaraq ...iqtisadi, sosial, mədəni və humanitar... xarakterli beynəlxalq problemlərin həlli məqsədi ilə beynəlxalq əməkdaşlığı həyata keçirirlər. BMT Nizamnaməsinin 11-ci maddəsində BMT Baş Məclisinin beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsində əməkdaşlığın ümumi prinsiplərini müzakirə etmək və Təhlükəsizlik Şurasına və üzvlərə tövsiyə vermək səlahiyyətinə vurğu edilir. Qeyd edilən əməkdaşlığın əksi halı, yəni beynəlxalq hüquq normalarının pozulması halında da beynəlxalq hüquqi (beynəlxalq sanksiyaların tətbiqi üzrə qərarlar formasında) əməkdaşlıq da həyata keçirilir.

Bu sahədə qanunvericilik tədbirlərinin həyata keçirilməsi konstitusiya normaları ilə yanaşı, həm də sahəvi, xüsusi qanunvericilik aktları ilə təmin edilir. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində deyilir ki, Azərbaycan Respublikası gömrük işi sahəsində qanunvericiliyinin və bu sahədə təcrübənin beynəlxalq hüququn normalarına və ümumi qəbul olunmuş beynəlxalq təcrübəyə uyğunlaşdırılması məqsədi ilə gömrük tənzimlənməsi sahəsində beynəlxalq əməkdaşlıqda iştirak edir (m.2.5) [3]. Burada "beynəlxalq hüquq normaları", həm də "hamılıqla qəbul edilmiş" prinsipləri ehtiva etməsi qənaəti yaradır. Lakin həmin maddənin "beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına" uyğun formada, daha konkret məzmunda ifadə edilməsi məqsədəuyğun olardı. Xüsusi şəxslər tərəfindən "hamılıqla qəbul edilmiş" prinsiplərin pozulması halında Azərbaycan Respublikası gömrük ərazisinə xarici mal və xidmətlərin idxalının dayandırılması və ya digər tədbirlərin görülməsinə daha konkret əsas vermiş olacaq.

Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında da beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə istinad var. Cinayət

Məcəlləsində (m. 1.2) [2] və İnzibati Xətalar Məcəlləsində (m.1.2) [4] daxili qanunvericiliyin beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə əsaslanması ifadə edilib. Çox təəssüf ki, Azərbaycan Respublikasının (sonradan əlavə edilən ekosid (m. 104) istisna olaraq) cinayət qanunvericiliyində xüsusi şəxslərin mülkiyyət hüququnun beynəlxalq cinayətlərdə iştirakı halında məhdudlaşdırma nəzərdə tutulmayıb. Hesab edirik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində Xüsusi hissədə beynəlxalq hüquqa qarşı cinayətlər halında beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə uyğun olaraq xüsusi şəxslərin mülkiyyət hüququnun məhdudlaşdırılmasının hüquqi əsası təsbit edilə bilər.

BMT Nizamnaməsinin 2-ci maddəsi dövlətlərin "suveren bərabərlik" prinsipi ilə başlayır. Həmin maddədə deyilir ki, BMT Nizamnaməsinin 1-ci maddəsində ifadə edilən məqsədlərə çatmaq üçün aşağıdakı Prinsiplərə: Təşkilat özünün bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır. "Suveren bərabərlik" prinsipi iki kateqoriyanı ehtiva edir: suverenlik və bərabərlik. Suverenlik hakimiyyət anlamında qanunvericilik, icra və məhkəmə fəaliyyətini nəzərdə tutur. Bu mənada suverenlik sadəcə bərabərliklə deyil, hüquq bərabərliyi ilə təzahür edir. Yəni bir dövlətin başqa bir dövlət üzərində hakimiyyəti olmur. Qədim Roma hüququndan gələn "par in parem non habet imperium" prinsipinə görə "bərabərlərin birinin digəri üzərində hakimiyyəti yoxdur". Bu qaydaya görə bir dövlət digərinə münasibətdə hakimiyyət yurisdiksiyası da həyata keçirə bilməz (par in parem non habet jurisdictium) [17, s. 143]. Beynəlxalq münasibətlərdə dövlətlərin normal qarşılıqlı fəaliyyəti üçün onların istənilən xarici hakimiyyət fəaliyyətindən immunitetə malik olması tələb edilir. Dövlət immuniteti normal hüquq qaydasının fundamental prinsiplərindəndir. Lakin müəyyən hallarda:

a) dövlət beynəlxalq ticarət (kommersiya) dövriyyəsinə daxil olduqda və

b) beynəlxalq hüquqi öhdəliklərini pozduqda ona qarşı immuniteti istisna edən tədbirlər tətbiq edilə bilir.

Birinci halda, dövlət immunitetinin istisna edilməsi üzrə (Dövlətlərin və onların mülkiyyətinin yurisdiksiya immuniteti üzrə 2004-cü il Konvensiyası; "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının 2000-ci il Qanunu, m.16) beynəlxalq hüquq qaydası "dövlətlərin suveren bərabərlik" prinsipindən meydana gəlir. Dövlətlərin öz yurisdiksiya immunitetini istisna etməsi, ərazisində digər dövlətin hüquq normalarının tətbiqinə icazə verməlari, xarici hüquq əsasında yaranan subyektiv hüquqların tanıması, xarici hüquq normalarının məzmununu həmin dövlətdə onların rəsmi təfsir və tətbiqinə uyğun olaraq müəyyən etmələri xarici dövlətin hüquq sisteminə hörmətin ifadəsi olaraq "dövlətlərin suveren bərabərlik" prinsipindən meydana gəlir. Beynəlxalq hüququn ümumtanınmış prinsiplərindən "dövlətlərin (iqtisadi) əməkdaşlıq" prinsipi kimi "dövlətlərin suveren bərabərlik" prinsipi beynəlxalq xüsusi hüquq münasibətlərində "qarşılıqlıq" prinsipini, digər müqavilə rejimli prinsipləri əsaslandırır.

İkinci halda, yəni dövlət özünün beynəlxalq ümumi hüquq üzrə imperativ normalarla təmin edilən öhdəliklərini pozduqda (BMT Nizamnaməsi "hərbi qüvvələrdən istifadə ilə əlaqəli olmayan (m. 41), "preventiv və ya məcburi" (m.2.5; 50), "beynəlxalq sülhün, təhlükəsizliyin pozulması və ya təcavüz halında tədbirlər" ilə əlaqəli (BMT Baş Məclisinin 56/03 saylı Qətnaməsi ilə qəbul edilən beynəlxalq hüquqa zidd fəaliyyətə görə dövlətlərin məsuliyyəti üzrə Maddələr (2001)) həmin dövlətə qarşı suverenliyin və dövlət immunitetinin istisna edilməsi, onunla əlaqəli xüsusi şəxslərin hüquqlarının məhdudlaşdırılması təmin edilə bilir.

Rusiyanın Ukraynaya hərbi təcavüzünə qarşılıqlıq olaraq Avropa İttifaqı 20-ci sanksiya paketini qəbul edib. Bura Avropa dövlətlərində

publik hüququn şəxsləri ilə bağlı ümumi xarakterli kontraktlar (Avropa İttifaqının dövlət satınalmalarında Rusiya vətəndaşlarının və subyektlərinin iştirakına qadağa qoyulması) da daxil olmaqla bütün xüsusi aktivlərin dondurulması (2700-dən çox hüquqi və fiziki şəxslərə qarşı təmin edilən sanksiyalar) [20] və s. aiddir. Bu tədbirlərin həyata keçirilməsinin əsaslarından biri kimi beynəlxalq hüququn ümumtanınmış prinsiplərindən "güc tətbiq etməmək və güclə hədələməmək" prinsipi olmuşdur. Burada söhbət qeyri-hüquqi gücün Rusiya tərəfindən tətbiqindən gedir və Rusiyanın hərbi təcavüzü zamanı ayrı-ayrı iş adamlarının Rusiyanın beynəlxalq hüquqa qarşı cinayətlərində müxtəlif formada iştirakları qeyd edilib.

**Nəticə**

Beləliklə, beynəlxalq hüququn ümumtanınmış prinsipləri dövlətlərin beynəlxalq, xarici elementli, transmilli, diaqonal münasibətlər üzrə, eləcə də daxili hüquq siyasətinin də əsası kimi çıxış edirlər. Bu prinsiplər həm hüquq yaratma, həm də realizə üçün əhəmiyyətlidir. Beynəlxalq hüququn ümumtanınmış prinsipləri dövlətləri beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi üzrə öhdələndirdiyi üçün onların yurisdiksiyası altındakı xüsusi şəxslər də bu normalara riayət etmək məcburiyyəti daşıyırlar.

Xüsusi şəxslər tərəfindən "hamılıqla qəbul edilmiş" prinsiplərin pozulması halında Azərbaycan Respublikası Konstitusiyası AFR-in təcrübəsini əsas ala bilər. AFR-in Konstitusiyasının 25-ci maddəsində ifadə edilən (beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normaları... federal ərazilərin əhalisi üçün birbaşa hüquq və vəzifələr yaradır) [25] müddəa beynəlxalq pozuntular halında beynəlxalq münasibətlərdə, kommersiya əlaqələrində xüsusi şəxslərin mülkiyyət hüquqlarının məhdudlaşdırılması üçün daha arqumentli norma kimi qeyd edilməlidir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında 1994-cü il 09 fevral tarixli Saziş. [Elektron resurs] /URL: https://e-qanun.az/framework/22995

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // Azərbaycan Respublikasının 1999-cu il 30 dekabr tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. [Elektron resurs] /URL: https://e-qanun.az/framework/46947

3. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi // Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 164-IVQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. [Elektron resurs] /URL: https://e-qanun.az/framework/46957

4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi // Azərbaycan Respublikasının 29 dekabr 2015-ci tarixli 96-VQ nömrəli Qanunu ilə təsdiq edilmişdir [Elektron resurs] /URL: https://e-qanun.az/framework/46960

5. Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). [Elektron resurs] /URL: https://e-qanun.az/framework/897

6. Əliyev Z. İnsan hüquqları. Ensiklopediya. – Bakı: İndigo Print House, – 2025. – 480 s.

7. Mahmudova O.Ə. Türkiyə-Azərbaycan münasibətlərinin beynəlxalq xüsusi hüquqi tənzimlənməsi. – Bakı: Bakı Cap Evi, – 2013. – 220 s.

8. Məmmədov, Ə.Q. Azərbaycan Respublikasının beynəlxalq xüsusi hüquq qanunvericiliyi və beynəlxalq hüquq: / hüquq elmləri namizədi dis. avtoreferat. / – Bakı, – 2004. – 20 s.

9. Məmmədov, Ə.Q. Beynəlxalq hüququn ümumtanınmış prinsipləri Azərbaycan Respublikasının beynəlxalq xüsusi hüquq qanunvericiliyinin hüquqi əsası kimi / – Bakı: Azərbaycan hüquq jurnalı, – 2004, №3, – s. 86-95

10. Венская Конвенция о праве международных договоров. Комментарий. / Сост. и автор комментариев А. Н. Талалаев, Н В. Захарова. –М., Юрид. лит., – 1997. –336 с.

11. Галенская Л.Н. Действие общих принципов международного права в сфере международного частного права / – Журнал Междунар. частного права. – 1996. №1-2, – с.3-4

12. Игнатьева И.А. Соотношение источников экологического права: Экологическое законодательство и международные договоры // – Государство и право, – 2001. №2, – с. 41-50

13. Кононенко, Д.Ф. Влияние экономических санкций на характер исполнения внешнеэкономического контракта // – Российский юридический журнал, – 2016. № 6, – с. 176-180.

14. Курс международного право. В семи томах, / АН СССР, Институт государства и права; редкол.: В. Н. Кудрявцев (гл. ред.) и др.. Т.2: «Основные принципы международного права», – М., – 1989. – с.7-8

15. Курс международного права [Текст]: в 7 т. / АН СССР, Институт государства и права; редкол.: В. Н. Кудрявцев (гл. ред.) и др.. Т. 1.: "Понятие, предмет и система международного права" / [Ю. А. Баскин, Д. Б. Левин, Д. И. Фельдман и др.] ; отв. ред. Р. А. Мюллерсон, Г. И. Тункин. – Москва: Наука, – 1989. – 358 с.

16. Мартенс Ф.Ф. Современное международное право цивилизованных народов. Т. I. Санкт-Петербург: типография Министерства путей сообщения (А. Бенке), – 1887. – 424 с.

17. Нешатаева. Т.Н. Международное частное право и международное гражданское процесс. Учебник курс в трех частях. – М.: ОАО «Издательский дом «Городец», – 2004. – 624 с.

18. Покровский П.А. К вопросу о субъектах международного права//Известия Министерства Иностранных – Дел. – 1912. Кн.VI. – с.177-210

19. Рубанов А.А. Теоретические основы международного взаимодействия национальных правовых систем / Отв. ред. В.П.Мозолин. – М.: изд-во Наука, – 1984. – 160 с.

20. Санкции ЕС против России вследствие вторжение в Украину https://commission.europa.eu

21. Симсон Э.К. Система международного права. Т.1. Основные понятия. – Санкт-Петербург: Т-во худож. печати, – 1900. – 183 с.

22. Усенко Е.Т. О научном вкладе Л.А.Лунца / Проблемы международного частного права (сборник статей). – М.: Юридическая фирма КОНТРАКТ, – 2000. – с.25-32

23. Халфина Р.О. Общее учение о правоотношении. – М.:Издательство: Юрид. лит., – 1974. – 351с.

24. Ященко А.С. Международный федерализм: идея юридической организации человечества в политических учениях до конца XVIII века / А. Ященко. – М.: тип. Имп. Моск. Ун-та, – 1908. – 386 с.

25. Germany 1949 (rev.2014) Constitution. https://www.constituteproject.org

26. ILC Commentary, Art. 51, para. 6 // Yearbook of the International Law Commission. 2001. Vol. H. Part H. N.–Y., 2007. – p. 135-136

27. İtaly 1947 (rev.2020) Constitution. https://www.constituteproject.org

28. Shaw M.N. International Law. 4th ed. – New York: Cambridge University Press, – 1999. – 939 p.

29. Tosza S. Enforcement of international sanctions as the third pillar of the anti-money laundering framework. An unannounced effect of the AML reform and the Sanctions Directive. NJECL (New Journal of European Criminal law) 2024. Vol. 15(3) p.336-356. DOI: 10.1177/20322844241274166

**Абберин Нушаба Рамиз гызы,**
юрист Государственного фонда социальной защиты при
Министерстве труда и социальной защиты населения
Азербайджанской Республики, докторант
Бакинского государственного университета

## ОБЩЕПРИЗНАННЫЕ ПРИНЦИПЫ МЕЖДУНАРОДНОГО ПРАВА КАК ОБЩАЯ ОСНОВА ДЛЯ ОГРАНИЧЕНИЯ ИМУЩЕСТВЕННЫХ ПРАВ ЧАСТНЫХ ЛИЦ (ПРИМЕНЕНИЕ МЕЖДУНАРОДНЫХ САНКЦИЙ)

### РЕЗЮМЕ

В статье исследуются международно-правовые основы ограничения права собственности в условиях применения международных санкций. Отмечается, что санкции могут быть направлены не только против государств, но и против связанных с ними физических и юридических лиц. Подчеркивается, что главной целью санкций является не наказание, а обеспечение международного мира и безопасности. Обосновывается, что правовой ос-

новой санкций выступают Устав ООН и общепризнанные принципы международного права. Автор показывает, что императивные нормы международного права распространяются и на международные частноправовые отношения. Особое внимание уделяется необходимости более полного отражения этих принципов в законодательстве Азербайджанской Республики. В статье проводится сравнительный анализ конституционного опыта Германии и других государств. В качестве практического примера рассматриваются санкции, введенные против России в связи с агрессией против Украины. Делается вывод о правомерности ограничения права собственности частных лиц на основе общепризнанных принципов международного права.

**Abberin Nushaba Ramiz,**
PhD candidate, Baku State University, State Social Protection Fund
under the Ministry of Labor and Social Protection
of Population of the Republic of Azerbaijan,

## THE GENERALLY RECOGNIZED PRINCIPLES OF INTERNATIONAL LAW AS THE GENERAL BASIS FOR THE RESTRICTION OF PRIVATE PROPERTY RIGHTS (THE IMPOSITION OF INTERNATIONAL SANCTIONS)

### SUMMARY

The article examines the international legal foundations for restricting property rights through international sanctions. It argues that sanctions may target not only states but also natural and legal persons associated with them. The study emphasizes that the primary purpose of sanctions is to maintain international peace and security rather than to impose punishment. It demonstrates that the UN Charter and the generally recognized principles of international law constitute the legal basis for such measures. The article highlights that peremptory norms of international law also apply to private international legal relations. It substantiates the need to strengthen references to these principles in the legislation of the Republic of Azerbaijan. The constitutional practice of Germany and other states is analyzed from a comparative perspective. International sanctions imposed in response to Russia's aggression against Ukraine are presented as a practical example. The article concludes that restrictions on the property rights of private persons are legally justified when based on the generally recognized principles of international law.

**Redaksiyaya daxilolma tarixi: 10.07.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 20.07.2026**
**Çapa qəbul olunma tarixi: 25.07.2026**